# Sosiallaşma prosesində valideyn-yeniyetmə münasibətləri

**Nərminə Seyfəl qızı Mirzəliyeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** mirzeliyevanermine@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. R.L. Hüseynzadə,
p.ü.e.d., prof. L.N. Qasımova

**Açar sözlər:** yeniyetmə, yeniyetməlik dövrü, sosiallaşma, ailə, tərbiyə prosesi, şəxsiyyət
**Ключевые слова:** подростковый возраст, отрочество, социализация, семья, воспитательный процесс, личность
**Key words:** adolescent, adolescence, socialization, family, education process, personality

Fərd doğulduğu andan etibarən onun bir çox sosial və psixoloji ehtiyacları və maraqları ortaya çıxır. Hər bir fərd digər insanlarla birgə yaşayır və yaşadığı mühitə uyğunlaşmaq istəyir. Sosial inkişaf prosesində şəxsiyyət yaşadığı cəmiyyət tərəfindən qəbul edilir və onlarla birlikdə hərəkət etməyi öyrənir. Yetkin insanın digər insanlarla sosial münasibətlərinin necə olması uşaqlıqda bu davranışın hansı formada qurulmasından asılıdır. Xüsusilə bu gün yeniyetmənin sosiallaşmasında ailə münasibətləri, məktəb, dost münasibətləri, ünsiyyət və kütləvi informasiya kimi vasitələrin əhəmiyyətli bir təsiri vardır. Yeniyetmələrin davranışlarını düzgün stiqamətləndirmək üçün onlara dəyərləri, sosial məsuliyyət hisslərini öyrətməyə ehtiyac vardır. Burada əsas rolu ailə oynayır. Qərb ədəbiyyatında "yeniyetmə" sözü latın dilində böyümək və yetişmək üçün istifadə olunan "adolescere" sözünün kökündən gəlir. Yeniyetməlik bu gün fərddə müşahidə olunan sürətli və davamlı inkişaf mərhələsi olaraq təyin edilə bilər. Yeniyetməlik uşaqlıq və yetkinlik arasındakı aralıq bir dövrdür. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu dövrü 10-19 yaş arasında, təyin edir. (Http://www.who.int). UNESCO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət Təşkilatı) yeniyetmə təhsil alan və pul qazanmaq üçün işləməyən və 10-19 yaş arası insan olaraq təyin edilir (Http://www.unesco.org). (1)

Ana, ata və uşaqlardan ibarət ailə sosial bir qurumdur. Başqa sözlə, ailənin quruluşu və funksiyaları dəyişsə də, insan nəslinin davamıdır və ictimailəşdirmə prosesinin ilk ortaya çıxmasını təmin edir. Ailə cəmiyyətin çatdırdığı maddi və mənəvi sərvətləri nəsildən-nəslə ötürən, bioloji, psixoloji, iqtisadi və hüquqi funksiyaları yerinə yetirən sosial qurumlardan biridir (Collins and Laursen 2004; Steinberg 2013). Əvvəlcə yeniyetmənin sosiallaşması ailədə başlayır. Yeniyetmələrin ailə tərbiyəsi onu gələcəyə hazırlamaqla yanaşı, həm də mədəniyyət səviyyəsində yaşadığı cəmiyyətdən asılıdır. Ailə, yeniyetmənin cəmiyyətə uyğunlaşmasında vacib bir funksiyanı yerinə yetirir. Cəmiyyətdə qəbul olunmuş "Doğru" və "səhv", "yaxşı" və "pis" dəyər və anlayışları ailədə valideynlər yeniyetmənin ağıl süzgəcindən keçirməklə şüurunda onları formalaşdırmağa çalışırlar. Ailələrin sosial, iqtisadi və mədəni vəziyyəti yeniyetmənin sosiallaşmasına təsir göstərir. Bəzi ailələrdə, yeniyetmələrə fərdi yanaşılmır, onların sualları çox vaxt cavabsız qalır, duyğularına və istəklərinə əhəmiyyət verilmir. Başqa birində uşağın arzu və istəkləri, maraqları nəzərə alınır, onların müxtəlif mövzularla bağlı suallarına izahatlar verilir. Bu iki növ ailədə böyüyən yeniyetmələrin sosiallaşması oxşar olmayacaq. Fərqli sosial status və ya təhsil səviyyəsi də buna təsir göstərir.

Sosiallaşmanı təmin edən amillər sırasında olan məktəb bütün cəmiyyətlərdə ailənin yanındadır. Məktəbin məqsədi uşaqların bilik və mədəniyyətini artırmaq, bunun davamlılığı təmin edə bilən şəxsiyyət yetişdirməkdir. Zamanla uşağın maraqlarında, xüsusiyyətlərində böyük dəyişikliklər baş versə də, onun həyata hazırlanmasında və ictimailəşdirilməsində onun rolu vacib olaraq qalır. Buna görə də valideynlər hər vaxt məktəblə əlaqədar olmalıdırlar. Yeniyetmələrin düzgün tərbiyəsində valideyn müəllim əməkdaşlığının olması mühüm əhəmiyyət kəsb edir. Latınca "common" ve "communicate" "communication" terimlərininin mənası olan ünsiyyət bu gün bilik və düşüncələr ötürülməsi, yazılı və ya şifahi şəkildə yayılması mənasında işlədilir. Ünsiyyət ən azı iki nəfər arasındakı bir hərəkətdir. Ünsiyyət yeniyetməlik dövrünün əsas ehtiyaclarından sayılır. Çünki bu dövrdə yeniyetmələr ünsiyyətə daha çox tələbatları olur və yeni dostluqlar qurmaqda daha maraqlı olurlar.

Uşağın bir şəxsiyyət kimi inkişafının əsasını ünsiyyət prosesi təşkil edir. Yeniyetmə xarakterinin formalaşmasında ailədaxili ünsiyyətin rolu böyükdür. Yeniyetmə ata və ana vasitəsilə təbiət və cəmiyyət haqqında təsəvvürlərə və anlayışlara yiyələnir, özünü qiymətləndirmək meyarlarını mənimsəyir. Yetkin adamlarla yanaşı aramızda hüquq normalarına, birgəyaşayış qaydalarına etinasızlıq göstərən, əxlaqi-hüquqi cəhətdən qeyri-sağlam böyüyən, çətin yeniyetmə kimi tanınan, qanunu pozan, cinayət xarakterli əməllərə meyl göstərən ümumxalq mənafeyini öz şəxsi mənafeyinə qurban verməyə hazır olanlar vardır. Müşahidə və sorğulardan bəlli olur ki, onların əksəriyyəti uğursuz ailələrdə böyüyüb boya-başa çatmış, tərbiyə almış, məktəbin, ictimai təşkilatların tərbiyəvi təsirlərinə biganə qalmışdır. Uğursuz ailələrdə valideynlər arasında qeyri-səmimi münasibətin kəskin şəkil alması, küsülülük, söz-söhbət, dava-dalaş olan ailələrdə yeniyetmə unudulur, tez-tez acılanır, döyülür. Ata ilə ana arasındakı qeyri-səmimi münasibətlər gələcək vətəndaşı çıxılmaz vəziyyətdə qoyur. Ailədə qayğı üzünə həsrət qalan yeniyetmə öz dünyasına qapılır, deyilən sözlərə əməl etmir və kobud olur. Onun bu davranışı get-gedə sabit xarakter alır. Belə yeniyetmələrin tərbiyəsi çətinləşir, yeniyetmə öz üzərində nəzarətin zəiflədiyini görüb yad təsirlərə uyur. Yeniyetmə olan ailələrdə bəzən valideynlərin ünsiyyət zamanı pis sözlər danışması yeniyetmənin inkişafına mənfi təsir göstərir. Buna görə valideynlər istifadə etdikləri sözlərə diqqət yetirməli və nalayiq sözlərdən istifadə etməməlidirlər. Prof. L.N. Qasımova "Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən" adlı dəyərli əsərində yazmışdır: "Unutmamalıyıq uşaqlar bizim məsləhətlərimizdən çox işlətdiyimiz ifadələri və etdiyimiz hərəkətləri nümunə götürür. Yeniyetməlik dövrünu "dönüş dövrü" və "böhran dövrü" də adlandırırlar" (2, s. 84). Sözsüz ki, bu adlar çoxluğunun yaranması tamamilə təbii xarakter daşıyır. Uşaq öz həyatının bir mərhələsindən digərinə, yeniyetməliyə keçir. Bu vaxt istər fiziki, istərsə də psixi inkişafda sürətli irəliləyişlər özünü göstərir. Yeniyetmələrin əsas problemlərindən biri valideynlərlə qarşılıqlı münasibətdə yaranan anlaşılmazlıqlardır. Bu yaş dövründə yeniyetmələrdə uşaqlıq asılılığından çıxmaq və valideynlərlə qarşılıqlı inam, hörmət, etibar və s. kimi münasibətlərə keçməyə tələbat yaranır. Yetkin insanların bu yaş dövründə olan övladını anlaması çox çətindir. Buna görə də onlar yeniyetməni dəyişmək üçün tənqid etməyə başlayırlar. Düşünürlər ki, tənqiddə fayda var. Halbuki valideynin həmin yaş dövründə olan övladını tənqid etməsi onları hər gün bir az da valideyndən uzaqlaşdırır və yadlaşdırır. Yeniyetmə bu zaman daha təhlükəli olur. Ailəsindən qopan yeniyetmələr kənar destruktiv qruplara meyl göstərirlər ki, bu da onların neqativ vərdişlərə yiyələnməsi ilə nəticələnir. Bu ən pis nəticədir. Valideynlər əslində uşağın öz dünyasını kəşf edə bilməsi üçün ona imkan verməli, onlarda özlərinə inam hissi yaratmalıdırlar. Valideynlə övlad arasında bu yaş dövründə hər hansı bir konfliktin baş verməməsi üçün aşağıdakı məsləhətlərdən yararlanmaq olar: övladlarınızı birbaşa tənqid etməyin, onların maraq

aləminə daxil olun fikirlərini sizinlə paylaşmasına çalışın, övladlarınızın dostu olmağı bacarın, özünüzü nümunə göstərməyin.

Prof. A.N. Abbasov “Milli əxlaq və ailə etikası” adlı dərsliyində yazmişdır: “Yeniyetmə oğul və ya qızınıza həssaslıqla yanaşın, onlari yaşidlari ilə müqayisə etməyin, övladlarinizin fikirlərinə önəm verin, onları qıcıqlandıra biləcək məsələlərə toxunmayın, uşaqlarınıza yaş dövrü haqqında informasiya verməyə çalışın, onların geyim və xarici görünüş məsələlərinə çox müdaxilə etməyin, sevdikləri şeylərə qarşı birbaşa tənqid yağdırmayın, övladlarınızı olduğu kimi qəbul edin” (3, s. 318).

Bu gün televiziya, radio, internet və mobil telefonlar kimi müxtəlif kütləvi informasiya vasitələri insanların həyatına girib. Bu indiki dövr üçün əvəzedilməz element kimi görülür. Kütləvi informasiya vasitələrinin məlumatlandırmaq, məlumatlandırma, maarifləndirmə, əyləncə imkanları çox fərqlidir. Bu vasitələr ailə və məktəb kimi ictimailəşdirmə vasitələrinin təsirini azaldır. Buna görə də kütləvi informasiya vasitələrinin uşaqlara mənfi təsirinin qarşısı alınmalıdır. Valideynlər informasiya vasitələrindən təhsil üçün, yeni bilik əldə etmələri üçün istifadəsinə nəzarət etməlidirlər. Televiziya seyr etmək hər bir ailənin fəaliyyətidir lakin uşaqları potensial zərərli nəşrlərdən qorumaq da ailənin əsas vəzifəsidir.

Sosiallaşma insanın fəal vətəndaş, bir şəxsiyyət kimi formalaşması prosesidir. Yeniyetmə onu əhatə edən insani münasibətlər aləmində əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk edilir və onu dəyişdirməyə səy göstərir. Yaranmış ziddiyətlərin həllinə çalışır və şəxsiyyətinin inkişafını təmin edir. Bu proses ailələr tərəfindən düzgün başa düşülməli, övladları ilə münasibətə daha diqqətli olmalıdırlar. Yeniyetmələr yaşlılarla münasibətdə yeni mövqe tutmağa və hərəkətlərində daha çox müstəqilliyə və sərbəstliyə, həmçinin öz yaşıdları və ailədə ünsiyyətdə müəyyən yeniliklər yaratmağa meyl edirlər. Valideynlər və yaşlı nəslin nümayəndələri bunu bəzən kobudluq, hörmətsizlik kimi qəbul edirlər, onların müstəqillik meyllərini qarşısını almağa çalışırlar. Bu da düzgün olmayan qarşılıqlı münasibətlərin yaranmasına və ailənin yeniyetmələrin sosiallaşması prosesinə mənfi təsir göstərilməsinə səbəb olur. Valideynlər övladlarını düzgün anlamalı, səbrli olmalı, onlarla yalnız valideyn kimi deyil, həmçinin dost kimi davranmalıdırlar. Bu formada qurulmuş münasibətlərdə yeniyetmələr valideynlərinin onlara qarşı hər hansısa fikrini düzgün başa düşür, yaxşı və pisi daha yaxşı analiz etməyi bacarırlar. Valideynləri onu səhv hərəkətinə görə xəbərdarlıq etdikdə, yeniyetmə öz-özlüyündə etdiyi səhv hərəkəti düşünür və səhvindən dərs almağı bacarır. Onların fikirlərinə hormətlə yanaşır. Əks hallarda isə yeniyetmə daim hər prosesdə özlərinə haqq qazandırır, valideynlərinin onu başa düşmədiyini fikirləşir. Beləliklə, səhvi daim qarşı tərəfdə axtarmağa çalışır özündəki səhvləri görə bilmir. Bu da yeniyetmələrin ailədən uzalaşmasına səbəb olur.

Ailədə yeniyetmələrin sosial tərbiyəsi prosesində onların istək, arzuları və maraqları nəzərə alınmalıdır. Onların cəmiyyətdə fəal şəxsə çevrilməsi üçün qabiliyyətlərini, maraqlarını üzə çıxarmağa çalışmalıdırlar. Frances E.Jensen “Yeniyetmələrin psixologiyası” haqqında kitabında yazmışdır ki, valideynlər övladlarının hər hərəkətinə reaksiya verмədən əvvəl 10-a kimi saymalıdırlar. Kitabında uşaqların ruh halı dəyişikliklərinin onların gunahı olmadığını, bunun beyinlə əlaqəli bir hal olduğunu ortaya çıxarmışdır. Ailədə özünəinam qazanmış yeniyetmə bunu real həyatına da inteqarsiya edir. Məktəbdə, yoldaşları arasında hormət qazanır. Yeniyetmələrin cəmiyyətdə düzgün mövqe tutmasında ailənin mühüm əhəmiyyət kəsb edir.

Uşaqların yeniyetməlik yaşını uğurlu tamamlamasında valideynlərin rolu böyükdür. Bu səbəblərdən biri uşaq və valideyn münasibətlərinin, uşağın yeniyetməlik dövrünün şəxsiyyət inkişafında mühüm yer tutmasıdır. Şəxsiyyət axtarışında olan yeniyetmə valideynlərindən ki-

fayət qədər dəstək ala bilmədikdə şəxsiyyət qarışıqlığına uğrayır. Bu, gənc yaşlarında uşağın aqressiv şəxsiyyəti, yanlış davranışlara tərəf dönməsi və introverted bir şəxs olması kimi arzuolunmaz nəticələrə səbəb ola bilər. Bir çox proses və mərhələdən keçən yeniyetmənin ən vacib dəstəyi yenə valideynlərdir. Ətrafının müdafiəçisi olan uşaqlara qarşı konstruktiv şəkildə yaxınlaşmaq və anlamaqla onun ailəsinə daha açıq olmasını təmin etmək lazımdır. Sosiallaşmağa çalışan yeniyetmə uşağın yaşadığı problemlərdə onu dəstəkləyərək daha yaxşı əlaqələr qurması təmin edilməlidir. Qruplarla birlikdə iştirak etdiyi tədbirlərdə daha fəal olmağını təmin etmək lazımdır. Bu baxımdan valideynlər iştirak etdikləri fəaliyyətlərdə övladları üçün nümunə rolunu oynayaraq daha fəal hərəkət edə bilər.

Yeni dostlar axtaran yeniyetmələr fərqli, çox yaxşı dostlar tanımaq istəyir. Bunu istəyən uşağa klassik bir ana və ata kimi yanaşmağın əvəzinə, ona bir dost kimi yanaşmaq düzgün üsul olar. Dostları ilə münasibətlərində onların inciməyinin qarşısını almaq üçün münasibət qurmağa mane olmaq əvəzinə, müsbət bir əlaqəyə sahib olmaqlarına kömək etmək lazımdır. Bir çox dostluğu sınayan yeniyetmə münasibətlərində təbii ki, uğursuz münasibətləri olacaq. Analar və atalar uşaqları ilə yaxşı bir dost seçməli olduqlarını, əsl dost necə olmalıdır sualına nümunə göstərməlidirlər. Yeniyetməlik yaşındakı uşaqlara məsləhət vermək cəmiyyətdə yaxşı və davamlı bir təsir metodu kimi qəbul edilsə də, bu dövrdə təsir üsulu demək olar ki, mövcud deyil. Buna görə də uşağa bir şey söyləmək əvəzinə qulaq asmaq daha təsirli olur.

Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz. Ailə münasibətləri, hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Yaş artdıqca uşaqlar həmin münasibətləri mənimsəyir, nəticədə bu zəmində də oğlan və qızların xarakter əlamətləri formalaşır.

Əhalinin təhsil mədəni səviyyəsinin köklü surətdə yüksəlməsi valideynlərin pedaqoji mədəniyyətinə də mühüm təsir göstərmişdir. İxtisasından asılı olmayaraq onların böyük əksəriyyəti ailə tərbiyəsi problemləri üzrə qəzet və jurnal məqalələrini maraqla oxuyur, televiziya və radio verilişlərində ölkəmizin, o cümlədən respublikamızın tanınmış psixoloq, pedaqoq və həkimlərin söhbətlərinə diqqətlə qulaq asırlar. Son zamanlar ailə tərbiyəsi problemlərinə dair kitab və kitabçalara da maraq artmışdır. Lakin bir çox ailələrdə, xüsusilə, gənc ailələrdə uşaqların tərbiyəsi sahəsində ciddi nöqsanlara rast gəlirik. Onlar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır. Son illər valideynlərin pedaqoji mədəniyyəti məsələlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəyyən etmişlər ki, ata-anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri çox ümumi, hətta bəzən səthi xarakter daşıyır. Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini həll etməkdə çətinlik çəkir, buna görə də uşaqla "ağlı necə kəsirsə, elə də rəftar edir”. Bu zaman onlar "tərbiyə üsullarının” nəticələrini görmür, özlərinin atalıq və analıq borcunu pedaqoji baxımdan düzgün qiymətləndirə bilmirlər.

Ailə tərbiyəsi məsələlərini biz başqalarına - uşaq vaxtı ata və anamıza, sonralar isə digər insanlara baxa-baxa çox vaxt onların səhvlərini təkrar edərək öyrənirik. Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ata uşağa bir tərzdə, ana başqa cür, nənə isə tamamilə fərqli şəkildə təsir edir. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir. H.Ə.

Əlizadə və R.M. Mahmudovanın müəllifi olduqları “Sosial pedaqogika” dərsliyində yazilmişdır: “Ailənin tərbiyə vəzifələri və imkanları haqqında da yanlış təsəvvürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbiyəsinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişafetdirici məşğələlərin digər formalarından az istifadə edilməsi bununla bağlıdır” (5, s. 274).

Bütün bu məlumatlar fonunda, yeniyetməlik dövrünün təbii və müvəqqəti bir proses olduğunu unutmamalıyıq.

**Məqalənin aktuallığı.** Məqalədə valideynlərin yeniyetmənin sosiallaşma prosesinə təsiri araşdırılır. Vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir, araşdırılması əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə dünya təcrübələrinə istinad edilmişdir. Ən səmərəli variantlar üzərində müqayisələr aparılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə valideynlərin yeniyetmənin sosiallaşma prosesinə təsirinə aid tələbələrə, müəllimlərə, gənc tədqiqatçılara zəruri məlumat verəcəkdir.

## Ədəbiyyat

1. Ackerman. N. J. A Theory of Family Systems. Allyn and Bacon, 1984.
2. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2015.
4. Hüseynzadə R.L., Allahverdiyeva L.Z. Ailə pedaqogikası: Dərslik. Bakı: ADPU, 2016.
5. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika: Dərslik. Bakı: BDU, 2013.
6. Əliyev P., Əhmədov H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.

**Н.С. Мирзалиева**

## Отношения между родителями и подростками в социализации

## Резюме

Подростковый возраст - это период быстрого физического роста, улучшения психической функции, гормонального фона, эмоциональные изменения и социальное развитие. Подростковый возраст - самый длинный период между детством и взрослая жизнь, в которую дети стали вступать во взрослый мир. Подросток открыт для новых впечатлений и приключения в этот период. Дружба, единение и принятие в группе важны для подросток. Подростки конфликтуют с членами семьи, чувство независимости стоит на первом плане. Социализация подростков должна быть проинформирована о соответствующих ролях и нормах, которые ожидаются от сами, пройдя определенные уровни для получения членства в обществе от рождения. Семья, школа, социальные группы и средства массовой информации являются эффективными факторами формирования социальной идентичности и обретение социальной респектабельности.

**N.S. Mirzalieva**

## Parent-adolescent relationships in socialization


## Summary

Adolescence is a period of a rapid physical growth, improvement in mental function, hormonal, emotional changes and social development. Adolescence is the longest period between childhood and adulthood which children began to enter the adult world. Adolescent is open to new experiences and adventures in this period. Friendship, togetherness and acceptance in a group is important for an adolescent. Adolescents are in conflict with family members, sense of independence is at the forefront. Socialization of adolescents is to be informed appropriate roles and norms which expected from themselves by passing certain levels for gaining the membership of the society from birth. Family, school, social groups and mass media are the effective factors in constitution of social identity and gaining social respectability.


**Redaksiyaya daxil olub:** 07.09.2020